25.10.2023 17:58

A- A A+

# MEK ADA Universitetində keçirilən beynəlxalq kitab sərgisinə qatılıb





AMEA-nın Mərkəzi Elmi Kitabxanası ADA Universitetində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq kitab sərgisində öz stendi ilə iştirak edib.

Ulu Öndər Heydər Əliyevin xüsusilə təhsilə, innovasiya və multikulturalizmə göstərdiyi diqqət və qayğının tədqiqi, həmçinin elmin, təhsilin, ədəbiyyatın təntənəsini qeyd etmək və fikir mübadiləsi aparmaq məqsədilə keçirilən sərgiyə MEK dahi şəxsiyyətin həyat və fəaliyyətini özündə əks etdirən, həmçinin Prezident İlham Əliyev tərəfindən aparılan uğurlu siyasətə, ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xalqımızın mənafeyinə xidmət edən səmərəli və yorulmaz fəaliyyətinə həsr olunmuş 100-dən artıq kitabla qoşulub. Onların sırasında "Azərbaycan ədəbiyyatında vətən və dövlətçilik məfkurəsinin intibahı: Heydər Əliyevdən - İlham Əliyevə", "Heydər Əliyev. Müdriklik mücəssəməsi", "Heydər Əliyev və Azərbaycan dilinin inkişaf konsepsiyası", "Görkəmli dövlət xadimi Heydər Əliyev: lider, zaman və müasirlik", "Missiya", "Heydər Əliyevin mədəniyyət siyasəti: Şuşadan-Lənkərana mövzusunda respublika elmi-nəzəri konfransının materialları", "Heydər Əliyevin elmi irsi", "Heydər Əliyev və Azərbaycan elmi", "Heydər Əliyev siyasəti: tarix və müasirlik", "Зарифа и Гейдар Алиевы. Любовь длиною в вечность", “Heydər Əliyev və İlham Əliyevin dövlət-din münasibətlərinin tənzimlənməsində rolu”, "Heydər Əliyev Azərbaycanda milli qanunvericiliyin və hüquqi dövlətin yaradıcısıdır", "O, günəş ömrüdü, sönməyəcəkdir", "Liberated Karabakh", "Yüksəkliyə doğru", "Ədəbiyyatda Heydər Əliyev obrazı tarixi gerçəklikdən ideala" 2 cilddə, "Diplomacy lessons in 44 days", “Şuşa şəhəri: Azərbaycan mədəniyyəti Qafqaza və dünyaya” və digər nəşrlər yer alıb. Həmçinin MEK-in öz nəşrlərindən ibarət bölmədə “İnformasiya bülleteni”, “Qırx dörd günün salnaməsi: Vətən müharibəsi”, “Şuşa-270”, “Zərifə Əziz qızı Əliyeva” adlı biblioqrafik göstəricilər, eləcə də “Heydər Əliyev İli” çərçivəsində kitabxana tərəfindən ərsəyə gələn “Ulu Öndərin müdrik fikirləri” adlı audiodisk sərgilənir.

Sərgidə iştirak edən AMEA Mərkəzi Elmi Kitabxanasının baş direktoru, professor Məmməd Əliyev, icraçı direktor, dosent Şəhla Tahirqızı yerli və xarici nəşriyyatların nümayəndələri ilə görüşüblər, kitabxana haqqında ətraflı məlumat veriblər. EBSCO-nun təlim-treninqində iştirak edən MEK rəhbərliyi təşkilatın MDB üzrə meneceri Aleksandr Ritov ilə görüşüb, onu kitabxanaya dəvət ediblər.

Sərgi müddətində MEK əməkdaşları ADA Universitetinin kitabxanası ilə də yaxından tanış olublar.

Beynəlxalq tədbirdə MEK-ə dəyərli nəşrlər hədiyyə olunub. Onlardan biri də Milli Aviasiya Akademiyasının “Heydər Əliyev və Azərbaycan mülki aviasiyası” adlı kataloqudur.

© Bütün hüquqlar qorunur. Xəbərlərdən istifadə edərkən www.science.gov.az saytına istinad zəruridir.

Paylaş: